

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 202 (21.863)

25 oktyabr 2017-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Şərur rayonunda qış mövsümünə hazırlıq işləri aparılır



***Muxtar respublikanın bütün bölgələrində olduğu kimi, Şərur rayonunda da payız-qış mövsümünə hazırlıq tədbirləri sürətlə həyata keçirilir. Bu tədbirlər çərçivəsində Şərur şəhərində kommunal binalara xidmət edən 13 qazanxanada nəzarət tədbirləri aparılaraq nasazlıqlar aradan qaldırılıb. Gələn aydan etibarən 13 qazanxana vasitəsilə 574 mənzildən ibarət 17 çoxmərtəbəli yaşayış binası istiliklə təmin olunacaq.***

Kommunal Müəssisələr Kombinatı tərəfindən şəhərin küçə və yollarının qardan təmizlənməsi üçün avadanlıq ehtiyatı yaradılıb, kanalizasiya xətlərində təmir işləri aparılıb. Bundan başqa, nasoslar da təmir edilib, mərkəzi kanalizasiya xətləri və köməkçi xətlər təmizlənib.

Mənzil İstismar Sahəsinin əməkdaşları tərəfindən Şərur şəhərində olan yaşayış binalarının dam örtüklərində, blokların qapı və pəncərələrində, zirzəmilərdə, su-kanalizasiya və istilik sistemi borularında təmir işləri aparılıb. Qış mövsümündə baş verə biləcək qəza hallarının aradan qaldırılması məqsədilə idarə tərəfindən ehtiyat üçün 100 diametrlik kanalizasiya borusu, 20 ədəd 25 diametrlik ventil, 10 ədəd 20 diametrlik ventil, 25 diametrlik su borusu, 50 metr polietilen örtük alınıb.

Yol Təmir-Tikinti İdarəsi tərəfindən 2 avtoqreyder, 1 ədəd buldozer, 3 KAMAZ, 2 ekskavator və digər maşın-mexanizmlər təmir olunub, 146 ton qum ehtiyatı yaradılıb.

Rayonun elektrik təsərrüfatının qış mövsümündə fasiləsiz fəaliyyəti üçün də tədbirlər görülüb. Belə ki, 142 kilometr məsafəni əhatə edən hava xətti məftillərinin keçdiyi ərazilərdə ağaclarda budama işləri aparılıb. 470 transformator yarımstansiyasında yağışdan mühafizə işləri görülüb. 47 transformator yarımstansiyasında təmir işləri həyata keçirilib. 62 transformator yarımstansiyasında sınıq izolyator, yanmış kabel və məftillər dəyişdirilib. 50 transformatora yağ əlavə edilib. Şərur şəhərindəki yaşayış binalarında elektrik şitləri və binaların zirzəmilərində olan kabellər qaydaya salınıb, yeni xətlər çəkilib, binalarda elektrik xətlərinin yüklənməsi tarazlaşdırılıb. Qışa hazırlıqla əlaqədar 2 transformator, 5000 metr məftil, 25 dib gövdə, 18 dayaq, 500 metr katanka məftili, 15 keçid izolyatoru, 300 metr kabel, 800 kiloqram transformator yağı və 1 ədəd xəttayırıcı alınaraq şəbəkənin anbarına təhvil verilib.

Rayonun yaşayış məntəqələrinin və inzibati binalarının qış mövsümündə fasiləsiz olaraq qazla təminatı üçün də ardıcıl tədbirlər həyata keçirilib. Rayonun yaşayış məntəqələrində qaz xətlərinin qış mövsümünə davamlılıq vəziyyəti yoxlanılıb, bəzi xətlərdə cari təmir işləri aparılıb. Qış mövsümündə 107 dövlət, 237 özəl müəssisə, 46 təhsil müəssisəsi və 17 çoxmərtəbəli yaşayış binasının istilik sistemləri mavi yanacaqla işləyəcək. Bu binaları istiliklə təmin edən qazanxanalarda nəzarət yoxlamaları aparılaraq çatışmazlıqlar aradan qaldırılıb. Rayon ərazisində quraşdırılmış müasirtipli 242 qazpaylayıcı şkafdan 120-si hazırda istismardadır. 122 qazpaylayıcı şkafın qış mövsümündə istismara verilməsi üçün hazırlıq işləri görülüb.

Rayonun təhsil, səhiyyə və mədəniyyət müəssisələrində qış mövsümü ilə əlaqədar yoxlamalar aparılıb, aşkar olunmuş nöqsanlar aradan qaldırılıb.

Rayon Rabitə İdarəsi tərəfindən 240 rabitə dirəyi yenisi ilə əvəz olunub, 95 dirəyin yeri dəyişdirilib, yeraltı rabitə xətlərinin quyu və borularında, generator qurğularında təmir işləri aparılıb.

Şərur Rayon Suvarma Sistemləri İdarəsinin balansında 481 artezian quyusu vardır. 230 quyudan suvarma, 251-dən isə içməli su üçün istifadə olunur. Rayon ərazisində olan artezianlarda təmir işləri aparılıb, baş verə biləcək qəza hallarının aradan qaldırılması üçün 200 metr müxtəlifölçülü məftil, 4 mühərrik, 3 nasos, 12 avtomat açar, 4 ədəd buraxıcı və digər avadanlıqlar alınaraq ehtiyat yaradılıb.

Rayonda qış mövsümünə hazırlıqla bağlı həyata keçirilən tədbirlər bu aylarda bütün sahələrdə fasiləsiz iş ahənginin təmin olunmasına şərait yaradacaq.

**Nail ƏSGƏROV**

***Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyindən aldığımız məlumata görə, nazirlik və onun yerli vergi orqanları tərəfindən muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması diqqət mərkəzində saxlanılıb. Belə ki, nəzarət-kassa aparatlarından istifadə, vergi orqanlarında uçotda durmadan fəaliyyət göstərən ödəyicilərin aşkar edilməsi, xarici valyuta sərvətlərinin ödəniş vasitəsi olaraq qəbulu, işəgötürənlə işçilər arasında əmək müqavilələrinin bağlanmasına nəzarət və sair kimi operativ nəzarətin əhatə funksiyalarına daxil olan məsələlər üzrə 15 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilib və müvafiq tədbirlər görülüb.***

## Bu ilin ötən dövründə operativ vergi nəzarəti tədbirləri gücləndirilib

Bununla bağlı nazirliyin Qanunsuz sahibkarlığın aşkar edilməsi şöbəsinin rəisi, vergi xidməti müşaviri Rəşad Əliyev bildirib ki, operativ nəzarət tədbirləri zamanı 12 vergi ödəyicisi tərəfindən əhali ilə nağd hesablaşmaların aparılması qaydalarının pozulması, 5 vergi ödəyicisi tərəfindən isə xarici valyuta məbləğlərinin ödəniş vasitəsi kimi qəbul edilməsi və valyuta sərvətlərinin ticarəti, iaşə və xidmət müəssisələrində qanunvericiliklə müəyyən edilmiş qaydalar pozulmaqla alınıb-satılması və ya dəyişdirilməsi faktları aşkarlanıb. 58 vergi ödəyicisinin "Fərqlənmə nişanı" olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşıması, 2 vergi ödəyicisində isə aksiz markası olmadan alkoqollu içki və tütün məmulatlarının satışı faktları qeydə alınıb.

Bundan başqa, 18 şəxsin vergi orqanlarında uçota durmadan sahibkarlıq fəaliyyəti göstərdiyi məlum olub, həmin şəxslər barəsində qanunamüvafiq tədbirlər görülüb. Aparılan operativ nəzarət işləri zamanı tətbiq olunan 7120 manat məbləğində inzibati cərimə və maliyyə sanksiyası məbləğləri tamamilə büdcəyə ödənilib.

Bəhs olunan dövrdə vergidən yayınma və dövriyyənin gizlədilməsi hallarına qarşı mübarizə məqsədilə 8 vergi ödəyicisində xronometraj metodu ilə müşahidələr aparılıb, müşahidələr zamanı əvvəlki dövriyyələrlə müqayisədə 8805,62 manat dövriyyə artımına nail olunub. Hər bir obyekt üzrə orta hesabla ay ərzində 22 manata yaxın vergi məbləğinin əlavə olaraq büdcəyə ödənilməsi təmin edilib.

**Səbuhi HÜSEYNOV**

## Muxtar respublikada pensiyalar vaxtında ödənilib

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu bu ilin 9 ayı ərzində əmək pensiyalarının maliyyələşdirilməsini vaxtından əvvəl başa çatdırıb.***

Yerlərdə məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar da nəzərə alınmaqla, 95 milyon 320 min 764 manat pensiyaçıların şəxsi hesablarına köçürülüb.

2017-ci ilin 9 ayı ərzində fondun gəlirləri 50 milyon 384 min 570 manat olub, "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununa əsasən pensiya hüququ yaranmış 1847 vətəndaşa əmək pensiyası təyin edilib. Hesabat dövründə məcburi dövlət sosial sığorta haqlarının ödənilməsində mütərəqqi ödəniş metodlarından, o cümlədən onlayn ödəniş sistemindən istifadə davam etdirilib. Sığortaedənlər tərəfindən məcburi dövlət sosial sığorta haqlarının internet və banklar vasitəsilə onlayn qaydada ödənilməsi təmin olunub. Kənd yerlərində fərdi qaydada sahibkarlıq fəaliyyəti ilə məşğul olan və torpaq mülkiyyətçisi olan sığortaedənlərin məcburi dövlət sosial sığorta haqlarını kəndlərdəki poçt şöbələri vasitəsilə ödəməsi işi təşkil edilib.

Ötən dövrdə "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq muxtar respublikada fərdi uçot sisteminin qurulması ilə əlaqədar işlər də davam etdirilib.

**Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti**

## Soyuducu anbarlarda meyvə-tərəvəz ehtiyatı yaradılır

***Aqrar sahənin inkişafı əhalinin etibarlı ərzaq təminatında mühüm şərtdir. Bu sahədə istehsal olunmuş məhsullardan qışda da əhalinin istifadə edə bilməsi üçün anbar təsərrüfatının rolu böyükdür. Çünki ilin bütün fəsillərində yerli məhsullarımız olan meyvə-tərəvəzə tələbat vardır.***




Bu baxımdan kənd təsərrüfatı məhsullarının istehsalı ilə yanaşı, onların ilboyu yüksək keyfiyyətlə saxlanılması və bazarlara təklif olunmasına xidmət edən soyuducu anbarların yaradılması Naxçıvan Muxtar Respublikasında torpaq mülkiyyətçiləri, fermerlər və fiziki şəxslərlə yanaşı, həm də əhaliyə göstərilən dövlət qayğısının bariz nümunəsidir. Belə ki, məhsulun yetişdiyi və tədarükü vaxtı onun sərfəli qiymətlərlə alınaraq anbarlarda saxlanılması bazarda qiymət tənzimlənməsinə kömək edir, eyni zamanda istehsalçıların öz işini genişləndirməsinə stimul yaradır.

Qeyd edək ki, anbar kompleksləri regional inkişafın bir göstəricisidir. Belə ki, soyuducu anbarlar, əsasən, idxal deyil, yerli məhsullar hesabına doldurulur. Muxtar respublikada kartof, soğan, alma, armud, şaftalı, kələm, sarımsaq kimi məhsulların istehsalının həcmi ilbəil artır. Bundan əlavə, həmin məhsulların daşıma xərclərini aşağı salmaq üçün soyuducu anbarların regionun müxtəlif yerlərində olması da vacib məqamlardan biridir.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyindən aldığımız məlumata əsasən hazırda regionda Sahibkarlığa Kömək Fondu vasitəsilə ayrılan güzəştli kreditlər və özəl investisiya hesabına yaradılan anbarların sayı 31-ə, onların ümumi tutumu isə 14 min 30 tona çatdırılıb.

Nazirlikdən onu da bildirdilər ki, hər il olduğu kimi, 2017-ci ilin ötən dövrü ərzində də əhalinin mövsümi kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsi, qiymətlərin tənzimlənməsi və idxaldan asılılığın azaldılması məqsədilə belə məhsulların soyuducu anbarlara tədarükü nəzarətdə saxlanılıb. 23 oktyabr 2017-ci il tarixədək kənd təsərrüfatı üzrə ixtisaslaşmış sahibkarların fəaliyyətinin stimullaşdırılması məqsədilə soyuducu anbarlara muxtar respublikada istehsal edilmiş 3360 tondan çox məhsul tədarük olunub. Bu qədər məhsulun 2403 tondan çoxunu kartof, 570 tondan çoxunu soğan, 204 tondan çoxunu şəhər, 137 tona yaxınını şaftalı, 40 tonunu ərik, habelə kələm, sarımsaq və üzüm məhsulları təşkil edir. Tədarük edilmiş meyvə-tərəvəz məhsullarından 860 tona yaxını satılıb.

Məlumatda deyilir ki, muxtar respublikada soyuducu anbarlardan səmərəli istifadə etmək məqsədilə sahibkarlarla qarşılıqlı razılaşma yolu ilə anbarlar istehsalçılara icarəyə verilir. Belə ki, soyuducu anbarlarda icarə olaraq 378 ton məhsul saxlanılmaqdadır. Hazırda muxtar respublikamızın müxtəlif bölgələrində soyuducu anbarlara məhsul tədarükü davam etdirilir.

**Əli CABBAROV**

## 250 hektardan çox ərazidə yaşıllıqların salınması nəzərdə tutulub

Naxçıvan Muxtar Respublikasında həyata keçirilən kompleks quruculuq tədbirlərinin əsas istiqamətlərindən biri də ətraf mühitin qorunması, ekoloji problemlərin həll edilməsi və əlverişli ekoloji mühitin yaradılmasından ibarətdir.

Müxtəlif təbii amillər, həmçinin muxtar respublikada kənd təsərrüfatının, sənaye sahələrinin inkişafı yaşıllıqların əhəmiyyətini daha da artırır.

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyindən verilən məlumata görə, 2017-ci ilin yaz əkini mövsümündə muxtar respublika ərazisində, şəhər, qəsəbə və kəndlərdə, sututarların, su kanallarının ətrafında, magistral yolların kənarlarında, ümumilikdə, 273,8 hektar sahədə meşəsalma və meşəbərpa tədbirləri həyata keçirilib, yeni meyvə bağları salınıb. Yaşıllaşdırma tədbirlərində 196 min 400 meşə və meyvə tingi, həmişəyaşıl ağaclar, bəzək kolları əkilib. Həmçinin nazirlik tərəfindən bəhs olunan dövrdə, ümumilikdə, 65,2 hektar sahədə yaşıllıq zolaqları, meyvə bağları salınıb, 113,6 hektar sahədə ting və toxumla bərpa işləri görülüb.

Payız əkini mövsümündə isə 250 hektardan artıq ərazidə yeni meyvə bağlarının və yaşıllıq zolaqlarının salınması nəzərdə tutulub. Qeyd edək ki, payız əkini, əsasən, muxtar respublikanın kənd təsərrüfatı üçün yararsız sayılan torpaq ərazilərində aparılacaq. Həyata keçiriləcək yaşıllaşdırma tədbirlərində üzümçülüyün inkişafı da diqqət mərkəzində saxlanılıb. Belə ki, qeyd olunan dövrdə, ümumilikdə, 22 hektar sahədə üzüm bağlarının salınması nəzərdə tutulub. Hazırda yaşıllaşdırma tədbirləri aparılacaq ərazilərdə torpaqların əkinə hazırlanması prosesi gedir.

**Səbuhi HƏSƏNOV**

# Ordumuz dövlət müstəqilliyinin, ərazi bütövlüyünün, sülh və əmin-amanlığın əsas təminatçısıdır

**Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:** ***Ordu quruculuğu sahəsində aparılan islahatlar, Naxçıvanda Əlahiddə Ordunun yaradılması, bu ordunun ən müasir silah-sursat, texnika ilə təchiz edilməsi bizim dövlət siyasətimizdir. Naxçıvanın hərbi potensialı böyük dərəcədə möhkəmlənmişdir. Naxçıvan ordusu bu gün güclü ordudur. Naxçıvan ordusunun hərbi texnika ilə təminatı ən yüksək səviyyədə təşkil edilir. Bu da təbiidir, çünki Naxçıvan strateji yerdə yerləşir. Naxçıvan blokada şəraitində yaşayır və belə olan halda Naxçıvanın döyüş potensialı ən yüksək səviyyədə olmalıdır.***





Tarixən ən sülhsevər, humanist xalq belə, öz Vətənini, öz müstəqilliyini qorumaq naminə müharibələrə təhrik edilib. Tarix səhnəsində, dünya xəritəsində yaşamaq üçün bu bir labüdlükdür. Azərbaycan xalqının taleyinə də məhz əlverişli geosiyasi mövqeyinə, əsrarəngiz təbiətinə və təbii sərvətlərinə rəğmən daim işğalçılara qarşı mübarizə aparmaq düşüb. Öz uğurlu xarici diplomatiyası, sosial-siyasi, iqtisadi tərəqqisi ilə dünyada kifayət qədər nüfuz qazanmış müstəqil Azərbaycan ordu quruculuğu prosesində də ardıcıl uğurlar əldə etmiş, Cənubi Qafqaz regionunun ən qüdrətli ordusuna malik güclü dövlətə çevrilmişdir. Oktyabrın 18-də – Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi



Günündə Naxçıvan Muxtar Respublikasında ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümü münasibətilə keçirilən hərbi parad bunu bir daha sübut etdi. Böyük əks-səda doğuran hərbi paradın siyasi, hərbi, iqtisadi əhəmiyyəti, yəqin ki, ekspertlər tərəfindən dəfələrlə araşdırılıb müzakirə olunacaq.

### *İlk hərbi paraddan başlayan 25 illik zəfər yolu*

Bu paradın əsas əhəmiyyəti onda idi ki, az qala əsrə yaxın bir müddətdə Sovetlər İttifaqını “Vətənim”, müstəqilliyinin qənimi olan Qırmızı Ordusunu isə “xilaskar” adlandırmağa məhkum edilən bir xalq Müstəqillik Gününü, bu müstəqilliyi və azad Vətəni müdafiə etmək əzmində olan milli ordusunun əsasının qoyulmasını təntənə ilə bayram edirdi. Paradın məhz Müstəqillik Günündə Naxçıvanda keçirilməsi əsası ümummilli lider tərəfindən Naxçıvanda qoyulan ordu quruculuğunun, hərbi islahatların əhatə dairəsini və real nəticələrini bir daha nümayiş etdirmək idi. Hərbi paradda hər zaman sülh və danışıqlar yoluna üstünlük verən Azərbaycanın, lazım gələrsə, işğal olunmuş ərazilərini müharibə yolu ilə də azad etmək qüdrətinə malik olması bir daha isbat edildi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun paraddakı tarixi çıxışında da vurğulandığı kimi, hərbi uğurlarımız ümummilli liderin ordu quruculuğu, şəxsi heyətin döyüş və peşəkarlıq səviyyəsinin artırılması istiqamətində gördüyü işlərin əhəmiyyətini və bu siyasətin Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən bu gün uğurla davam etdirildiyini bir daha sübuta yetirdi.

Parada Azərbaycan Respublikasının Dövlət Bayrağı altında daxil olan Heydər Əliyev adına Hərbi Liseyin kursantları ümummilli liderin totalitar sovet hakimiyyəti dövründə böyük siyasi uzaqgörənliklə hərbi təhsilin inkişafı, bu sahədə ixtisaslı mütəxəssis hazırlığı ilə bağlı apardığı islahatların bugünkü bəhrəsi kimi insanın köksünü qürurla qabartdı. Heç şübhəsiz ki, öz uğurları ilə tanınan lisey hələ generallar yurdu Naxçıvanın tarixi hərbi zəfərlərini davam etdirəcək neçə-neçə milli hərbi kadr yetirəcək.

Əlahiddə Ümumqoşun Ordunun müxtəlif bölmələri sıra ilə meydana daxil olduqca, şanlı milli ordumuzun əsası ötən əsrin 90-cı illərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda qoyulan şərəfli tarixi yaddaşlarda yenidən vərəqləndi. O illərdə Azərbaycandan süni şəkildə





təcrid edilən, ərzaq, yanacaq qıtlığından korluq çəkən Naxçıvan üstəlik də mənfur ermənilər tərəfindən hücumlara məruz qalmış, azğın düşmən qarşısında silahsız-köməksiz, təkbaşına dayanmışdı. Ən çətin zamanlarda xalqla bir olan, ona arxa duran dahi şəxsiyyət Heydər Əliyevə sonsuz ümid və inam, bir də Vətən uğrunda haqq savaşı həmin dövrdə Naxçıvanı qorudu. Bu həm də xalq-rəhbər həmrəyliyinin, vəhdətinin ideal nümunəsi idi.

Ulu öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçiləndən cəmi 4 gün sonra – 1991-ci il sentyabrın 7-də Naxçıvan Müdafiə Komitəsi yaradıldı, 1992-ci il sentyabrın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Naxçıvan Muxtar Respublikasının müdafiəsinin və sərhədlərinin qorunmasının təşkili haqqında” Qərar qəbul edildi. Həmin il oktyabr ayının 9-da isə Naxçıvan şəhərində ilk hərbi parad keçirildi. 1992-ci il sentyabrın 15-də Naxçıvan Muxtar Respublikası ərazisində ilk milli ordu qurumlarından biri olan N saylı əlahiddə gücləndirilmiş motoatıcı briqada təşkil edildi və Dövlət Müdafiə Komitəsinin bütün əmlakı həmin hərbi hissəyə təhvil verildi. Sonralar bu əsasda Azərbaycan Ordusunun V Ordu Korpusu yaradıldı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Azərbaycan Respublikası Müdafiə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə” 2013-cü il 18 dekabr tarixli Fərmanına əsasən, Naxçıvan Muxtar Respublikasının müdafiəsinin möhkəmləndirilməsi, Silahlı Qüvvələrin hissə və bölmələrinin döyüş qabiliyyətinin artırılması, bir mərkəzdən idarəetmənin təkmilləşdirilməsi məqsədilə ordu korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordu yaradıldı. Hərbi parad zamanı ordunun mexanikləşdirilmiş, motoatıcı, xüsusi təyinatlı, kəşfiyyat, dağ atıcı, tank, reaktiv artilleriya, hava hücumundan müdafiə və rabitə bölmələri tribuna önündən keçərək Naxçıvanın müdafiə qabiliyyətini bir daha nümayiş etdirdilər.

Paradın bir özünəməxsusluğu da burada təkcə Müdafiə Nazirliyinin hərbi birləşmələrinin deyil, Daxili Qoşunların “Naxçıvan” Əlahiddə Əməliyyat Briqadasının, “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyasının, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayının da təmsil olunmasında idi. Bu, Naxçıvanın istənilən təxribat və təcavüzün qarşısını almağa mütəşəkkil hazırlığını nümayiş etdirdi.

Hərbi paradda taktiki-texniki xüsusiyyətlərinə görə, ən yeni nəsil sayılan hərbi texnikalar və silah sistemlər nümayiş olundu. Onların arasında uzaq mənzilli raketlər, idarə olunan raketlər də yer aldı. Hərbi paraddakı yeniliklərdən biri də ordunun istifadəsində yer alan, Azərbaycan istehsalı olan “Orbiter-3B” kiçikölçülü taktik pilotsuz uçuş aparatı idi. Paradda nümayiş olunan tank əleyhinə raket kompleksləri – atış məsafəsi 8 kilometrə qədər olan “SPAYK”lar, özüyeriyən tank əleyhinə “Xrizantema”lar ordu silahlanmasına yeni daxil olub. “Smerc” yaylım atəşli reaktiv sistemlər və T-300 “Qasırğa” raket artilleriya sistemləri, o cümlədən İsrail istehsalı olan “Qrad LAR”, atış məsafəsi 40 kilometr təşkil edən T-122 “Sakarya” yaylım atəşli reaktiv sistemlər Naxçıvanda artilleriyanın gücləndirilməsindən xəbər verdi. Azərbaycanda istehsal olunan və beynəlxalq sərgilərdə böyük maraqla qarşılanan “Marauder” və digər zirehli döyüş maşınları, hava hücumundan müdafiə qoşunlarının istifadəsində yer alan modernizə edilmiş “Osa” və “S-125” zenit-raket kompleksləri də müasir silahlar kimi diqqəti çəkdi. Paradda, həmçinin son illərdə alınan “BTR-82A” zirehli transportyor, “T-90C” tankları, “TOS-1A” ağır reaktiv sistemi yer aldı. Şahinlərimiz – hava məkanımızın ayıq-sayıq keşikçiləri “Mİ-17-1V” və “Mİ-35M” hərbi vertolyotları, “SU-25” döyüş təyyarələri ilə səmada süzdülər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Ordunun qüdrəti və döyüş qabiliyyətinin yüksək olması yalnız güclü texniki təminatla ölçülmür. O ordu güclüdür ki, onun sıralarında vətənpərvər gənclər xidmət edir”***. Paradda iştirak edən 2000-ə yaxın şəxsi heyət, Ali Baş Komandanın müharibə əmrinə müntəzir əsgərlərimizin nizami, qətiyyətli addımlarla keçidi, ümummilli liderimizin də arzuladığı kimi döyüş əzmi, böyük ruh yüksəkliyi və vətənpərvərlik hissi ilə seçilən əsgərlərimiz xalqımızın qələbə iradəsini bir daha nümayiş etdirdi.

Naxçıvanın müdafiə qabiliyyətinin daha da artması, mərkəzdən idarəetmənin təkmilləşdirilmə nəticəsində sarsılmaz müdafiə sisteminin qurulması təkcə hərbi paraddakı sıravi keçidlə deyil, eyni zamanda hərbi təlimlərdə iştirakı zamanı nümayiş etdirdiyi döyüş qabiliyyəti, istərsə də təcavüzkar düşmənin təxribatlarına tutarlı cavab zərbələri ilə öz güc və qüdrətini təsdiqləmişdir.

Belə ki, 15 İyun – Milli Qurtuluş Günü münasibətilə Naxçıvan Muxtar Respublikasında keçirilən Azərbaycan-Türkiyə birgə hərbi təlimlərində Əlahiddə Ümumqoşun Ordu nizam-intizamı və silah-sursat təchizatı ilə NATO kimi qüdrətli hərbi-siyasi təşkilatda dünyanın supergücü olan Amerika Birləşmiş Ştatlarından sonra ikinci yerdə qərarlaşan, Avropada isə analoqu olmayan Türkiyə Silahlı Qüvvələri ilə bərabər səviyyəyə malik güc



nümayiş etdirmişdir. Əlahiddə Ümumqoşun Ordunun gecə şəraitində keçirdiyi taktiki təlimlər də şəxsi heyətin peşəkarlığının yüksək səviyyədə olduğunu sübuta yetirmişdir. Təmas xəttindəki strateji yüksəkliklərdə belə bir müdafiə sisteminin yaradılması sayəsində bu gün muxtar respublikadakı sülh və əminamanlıq bərqərar olunmuşdur. Erməni ilə burun-buruna dayanan ən ucqar sərhəd dağ kəndlərində belə, gündəlik firavan həyat öz axarınca gedir.

### *Nizami addımların, müasir silah və texnikanın əks-sədası*

Hərbi paradın keçən az müddətdə sosial şəbəkələrdə, informasiya agentliklərində, kütləvi informasiya vasitələrində böyük rezonans doğurduğunun şahidi olduq.

“AZERİ DEFENCE” jurnalının baş redaktoru Rəşad Süleymanovun müsahibəsindən: “Parad göstərdi ki, Azərbaycan Silahlı Qüvvələri tək ölkə ərazisində deyil, eyni zamanda Naxçıvan Muxtar Respublikası ərazisində də güc potensialına malikdir”.

Moderator.az saytına açıqlama verən ehtiyatda olan polkovnik, hərbi ekspert Şair Ramaldanov: “Naxçıvanda ordunun gücünü təlimlərdə də, hərbi paradda da gördük. Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu bizim hər birimizin fəxri və qürur mənbəyidir”.

Naxçıvan şəhər sakini Lətifə Əliyeva təəssüratlarını bölüşdü: “Müharibənin ağrı-acılarını, dəhşətlərini yaşayan bir ailəyik. Qayınatam Əhəd Əliyev Böyük Vətən müharibəsi iştirakçısı idi, 1944-cü ildə almanlara qarşı döyüşlərdə gözlərini itirmişdi. Yoldaşım Səyyad Əliyev ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanın ərazi bütövlüyü uğrunda fəal mübarizə aparanlardan idi. 1992-ci ildə Miltəpə yüksəkliyi uğrunda gedən döyüşlərdə şəhid olub. Oğlum Emil də atası ilə çiyin-çiyinə Sədərək döyüşlərində iştirak edib. Bu gün isə şəhid babasının adını vüqarla daşıyan nəvəm Səyyad bir ildən çoxdur ki, hərbi xidmətdədir. Hərbi paradı izləyərkən bütün bunlar – xalqımızın qəhrəmanlıq tarixi keçdi gözlərim önündən. Nə qədər qürur duydum. Ordumuzun qüdrəti, hərbi sənayemizin inkişafı göz qabağındadır! O əsgərlərin hər birini nəvəm Səyyad kimi bağrıma basıb qucaqlamaq, inşallah tezliklə qələbə müjdəsilə bizi sevindirmələrini gözlədiyimizi demək istədim. Analarımız bu paraddan sonra hərbi xidmətdə olan övladlarından daha da arxayın olacaqlar. Ordumuzun bu gün nümayiş olunan döyüş əzmi, hərbçilərimizə olan dövlət qayğısı, ən müasir silah və texnikalarla təchiz olunması bunu deməyə əsas verir”.

*Ali Məclis Sədrinin dediyi kimi:* ***“Vətən o zaman vətən olur ki, o həm qorunur, həm də vətən torpağından səmərəli istifadə olunur”.*** *Bu möhtəşəm hərbi parad bir daha bunu sübut etdi. Sübut etdi ki, Vətən, əslində, bax elə o tətikdə olan əldən, hədəfə tuşlanmış raket başlığından, Qırattək cövlan edən “zirehlilər”in “nərəsi”ndən, səmada şığıyan şahinlərimizin ənginliklərə yüksəltdiyi üçrəngli bayraqdan başlayır. Sübut etdi ki, müdrik və uzaqgörən, vətənpərvər, millətsevər rəhbəri, bir də qüdrətli ordusu olan ölkə basılmaz!!!*

**Mehriban SULTAN**

# Hüseyn Cavid Poeziya Günü ilə bağlı tədbir keçirilib



*Tədbir iştirakçıları əvvəlcə Hüseyn Cavidin şəhərin mərkəzində ucaldılan məqbərəsini ziyarət edib, dahi şairin Naxçıvan şəhərindəki ev-muzeyində olublar.*

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında keçirilən tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova deyib ki, bu gün istər poeziyada, istərsə də dramaturgiyada orijinallığı ilə seçilən, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan şair-dramaturq Hüseyn Cavidin anadan olmasından 135 il ötür. Hüseyn Cavid 1937-ci ilin iyun ayında “gizli millətçi əks-inqilabi təşkilat”da iştirakı bəhanəsi ilə günahsız yerə səkkizillik həbs cəzasına məhkum olunub. Həmin ildən onun bütün əsərlərinin nəşri və tamaşaya qoyulması qadağan edilib.

Ulu öndər Heydər Əliyevin qayğısı ilə ötən əsrin 70-ci illərindən etibarən Cavidin əsərləri nəşr olunmağa başlayıb, rus dilində 2 cildliyi işıq üzü görüb. Ümummilli lider Heydər Əliyev çox böyük cəsarət tələb edən addım atıb, Cavidin cənazəsi 1982-ci ildə Uzaq Sibirdən Bakıya, noyabrın 2-də isə Naxçıvana gətirilib. Bu fakt keçmiş Sovetlər Birliyi məkanında repressiya olunmuş şəxsə dövlət səviyyəsində göstərilmiş münasibətin yeganə cəsarətli nümunəsidir.

Bildirilib ki, 1992-ci il oktyabrın 23-də Naxçıvanda Hüseyn Cavidin 110 illik yubileyi təntənəli şəkildə qeyd edilib, həmin dövrdə Naxçıvanda Ali Məclisin Sədri işləyən ümummilli liderimiz yubiley tədbirində Hüseyn Cavid haqqında dərin məzmunlu nitq söyləyib, böyük sənətkarın xatirəsinin əbədiləşdirilməsi ilə bağlı bir sıra məsələlərə toxunub. Görkəmli dövlət xadimi Heydər Əliyev 1993-cü ildə siyasi hakimiyyətə qayıdışından sonra da Cavid şəxsiyyətinə, irsinə, ailəsinə diqqət və qayğısını əsirgəməyib. 1995-ci il iyunun 10-da ulu öndər Heydər Əliyevin yanında keçirilmiş müşavirədə görkəmli şair-dramaturq Hüseyn Cavidin məqbərəsinin və ev-muzeyinin yaradılması ilə bağlı məsələlər geniş müzakirə olunub. 1996-cı il oktyabrın 29-da Naxçıvanda böyük sənətkarın məqbərəsinin təntənəli açılış mərasimi olub. Bu mərasim böyük Cavidə qayğı və məhəbbətin təntənəsi, məqbərənin yaradılması isə təkcə böyük sənətkara deyil, Cavidlərə ucaldılan abidə idi.





“Hüseyn Cavidin anadan olmasının 120 illiyinin qeyd olunması haqqında ulu öndərin 2002-ci il 23 oktyabr tarixli Sərəncamı sübut edir ki, görkəmli dövlət xadimi Heydər Əliyev böyük sənətkarın irsinin öyrənilməsinə həmişə diqqətlə yanaşıb”, – deyən Natəvan Qədimova vurğulayıb ki, bu sərəncam Cavid şəxsiyyətinə və yaradıcılığına tükənməz məhəbbətin, Bakı və Naxçıvan şəhərlərində Hüseyn Cavidin ev-muzeyinin yaradılması, 1993-cü ildə Bakıda görkəmli ədibin abidəsinin ucaldılması dövlət qayğısının parlaq ifadəsidir.

Qeyd edilib ki, ulu öndərimizin yolunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin 2007-ci il 17 aprel və 2012-ci il 16 fevral tarixlərində imzaladığı Hüseyn Cavidin 125 və 130 illik yubileylərinin keçirilməsi ilə bağlı sərəncamlar dahi sənətkara göstərilən dövlət qayğısının davamı kimi qiymətləndirilməlidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin yubileylə bağlı 2007-ci il 15 may və 2012-ci il 20 fevral tarixli sərəncamlarla təsdiq etdiyi Tədbirlər planlarına əsasən qədim diyarımızda yubiley tədbirləri yüksək səviyyədə təşkil olunub, muxtar respublikanın ali, orta ixtisas və ümumtəhsil məktəblərində “Hüseyn Cavid dərsləri” keçilib, elmi konfrans və simpoziumlar təşkil edilib. Həmçinin Naxçıvan Dövlət Musiqili Dram Teatrında Hüseyn Cavidin “Şeyx Sənan” əsəri tamaşaya hazırlanıb, “Naxçıvan” jurnalının ədibin 130 illik yubileyinə həsr edilmiş xüsusi nömrəsi nəşr olunub. Ali Məclis Sədrinin 2007-ci il 15 may tarixli Sərəncamla təsdiq etdiyi Tədbirlər Planında hər il görkəmli şair və dramaturqun anadan olduğu günün – 24 oktyabrın muxtar respublikamızda “Hüseyn Cavid Poeziya Günü” kimi qeyd edilməsi də öz əksini tapıb.

Diqqətə çatdırılıb ki, Hüseyn Cavid sənəti və şəxsiyyəti bu gün də yaşayır. Hüseyn Cavidin 135 illik yubileyi münasibətilə Naxçıvan Dövlət Musiqili Dram Teatrının 135-ci mövsümündə görkəmli ədibin “İblis” faciəsi əsasında tamaşa hazırlanıb. Bütün bunlar bir daha onu göstərir ki, Hüseyn Cavid yaradıcılığının öyrənilməsi və təbliği onun doğulub boya-başa çatdığı Naxçıvanda diqqət mərkəzindədir.

Sonra görkəmli ədibin “İblis” faciəsi əsasında hazırlanan tamaşaya baxış olub.

✍ **Nail ƏSGƏROV**

---

*Naxçıvan Dövlət Universiteti-50*

# Ali təhsil ocağı əcnəbi tələbələrin gözü ilə

*Ölkəmizdə fəaliyyət göstərən ali təhsil ocaqları sırasında istər tədrisin keyfiyyəti, istərsə də müasir inkişaf yolu və tərəqqi baxımından adı ön cərgələrdə çəkilən Naxçıvan Dövlət Universiteti yarıməsrlik tarixə malikdir. Bu ali təhsil ocağı digərlərindən özünəməxsus ənənələri və nailiyyətləri ilə seçilir. Universitet muxtar respublikada elm və təhsil müəssisələrinin inkişafı və formalaşmasında, onların savadlı, qabiliyyətli kadrlarla təmin olunmasında mühüm əhəmiyyət daşıyır.*





1967-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialı kimi fəaliyyətə başlayan, qazandığı uğurlarla inkişaf mərhələsinin yüksək pillələri ilə irəliləyən Naxçıvan Dövlət Universiteti dünyaya inteqrasiya etmiş müasirtipli ali məktəbdir. Dünya birliyində və ölkənin ali təhsil sistemində özünəməxsus yeri olan universitet daim yeniləşmək və inkişaf etmək istiqamətində tarixi yolunu davam etdirməkdədir. Hazırda bu ali təhsil ocağı beynəlxalq təşkilatlarla aparılan səmərəli əməkdaşlığın nəticələrindən biri kimi Avropa İttifaqı tərəfindən maliyyələşdirilən “TEMPUS” proqramı üzrə 8 beynəlxalq layihənin iştirakçısıdır. Əlavə olaraq universitetdə “Erasmus+” proqramı əsasında tələbə mübadiləsi də həyata keçirilir. İndiyədək 30-a yaxın tələbə bu mübadilə proqramı çərçivəsində Avropanın tanınmış universitetlərində təhsil almışdır. Həmçinin Naxçıvan Dövlət Universitetində təhsil alan xarici tələbələrin də sayı kifayət qədərdir. Bu tələbələrin həm muxtar respublika, həm də təhsil aldıqları universitet ilə bağlı təəssüratlarını öyrənmək üçün Naxçıvan Dövlət Universitetinə üz tutduq.

Universitetdə Xarici tələbələrlə iş üzrə dekanlıq haqqında ətraflı məlumat aldıq. Öyrəndik ki, ali təhsil ocağının əsas struktur sahələrindən birini Xarici tələbələrlə iş üzrə dekanlıq təşkil edir. Bu dekanlıq tələbələrin sayından asılı olaraq 1998-ci ildə yaradılsa da, əcnəbi vətəndaşların universitetə qəbulu 1992-ci ildən aparılır. Xarici tələbələrlə iş üzrə dekanlıq Naxçıvan Dövlət Universitetinin tədris prosesində və elmi-tədqiqat işlərinin təşkilində dünya təcrübəsindən yaradıcı şəkildə faydalanmağa imkan verir.

Hazırda universitetdə təhsil alan 6 minə yaxın tələbənin 300-dən çoxu İran, Rusiya, Nigeriya, Türkiyə, Pakistan, Türkmənistan, Qazaxıstan, Koreya, Banqladeş və digər ölkələrdən gələn tələbələrdir. Xarici tələbələrlə iş üzrə dekanlıq universitetimizə təhsil almağa gələn xarici vətəndaşlar üçün hazırlıq kursları təşkil edir. Kursların müddəti 8 aydır. Bu kursların təşkili bakalavr üzrə təhsil almaq üçün universitetimizə müraciət edən xarici tələbələrin seçdikləri ixtisas fənlərini daha dərindən mənimsəmələri baxımından öz bəhrəsini verir. Dekanlıq tələbələrin sosial-iqtisadi problemlərinin həlli, hüquqlarının qorunması, asudə vaxtlarının səmərəli keçirilməsi üçün çalışır və həmin tələbələrin iştirakı ilə müsabiqələr, seminarlar, festivallar, sərgilər, elmi konfranslar təşkil edir.

Universitetdə təhsil alan xarici tələbələrin bir neçəsi ilə də görüşdük. Onların universitet, eləcə də muxtar respublika haqqında təəssüratlarını dinlədik.

Cənubi Koreya Respublikası vətəndaşları – Azərbaycanın fiziki coğrafiyası ixtisasının III kurs tələbəsi Kim Dosunq və Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası və metodologiyası ixtisasının IV kurs tələbəsi Li Jin, Nigeriya Respublikası vətəndaşları – Əczaçılıq ixtisasının II kurs tələbəsi Abdullahi Yusuf, Müalicə işi ixtisasının VI kurs tələbəsi Somson Odigie, Türkiyə Respublikası vətəndaşları – Musiqi müəllimliyi ixtisasının IV kurs tələbələri Nəfis Özləm və Doğan Özdəmir, İraq Respublikası vətəndaşı, Energetika mühəndisliyi ixtisası üzrə IV kurs tələbəsi Hüseyn Torhan, İran İslam Respublikası vətəndaşı, Stomatologiya ixtisası üzrə III kurs tələbəsi Əlizadə Qulamrza burada təhsilin keyfiyyətindən, müəllim və tələbə kollektivinin onlarla səmimi münasibətindən, universitetdə yaradılan hərtərəfli şəraitdən, eləcə də muxtar respublikadakı əmin-amanlıqdan, firavanlıqdan, buranın təbiətinin gözəlliyindən, ekoloji cəhətdən təmizliyindən, insanların qonaqpərvərliyindən bəhs etdilər.

Koreya Respublikası vətəndaşı Li Jinin dediklərindən: “İlk dəfə bura gəldikdə mühitlə ünsiyyət qurmaq çətin olsa da, az müddət ərzində universitetdəki ilkin dil öyrənmə hazırlığı və təbii ki, ən əsası, mənim səyim nəticəsində insanları az da olsa, anlamağa və bu dildə mükəmməl olmasa da, fikrimi izah edə biləcəyim səviyyədə danışmağa başladım. Artıq 3 ildən çoxdur ki, burada təhsil alıram. İndi insanları nəinki anlamaq, onlarla söhbət etməkdə, ünsiyyət qurmaqda heç bir çətinlik çəkmirəm. Bu universitetdə təhsil almağımın ən üstün cəhətlərindən biri Azərbaycan dilini yüksək səviyyədə öyrənməyimdir”.

Digər həmsöhbətimiz Türkiyə vətəndaşı olan Nəfis Özləm ali təhsil müəssisəsindəki hərtərəfli şəraitdən danışdı: “Universitetdə tələbələrin rahatlığını təmin etmək üçün hərtərəfli şərait yaradılıb. Buradakı elektron kitabxana, universitet xəstəxanası, olimpiya tipli idman mərkəzi, müasirtipli tələbə evi və elə onun yaxınlığında tələbələrin asudə vaxtlarını səmərəli keçirmələri üçün istirahət yerləri var. Xəstəxanada biz tələbələrin sağlamlıqları ilə bağlı problemləri olduqda ixtisaslı həkimlər tərəfindən təmənnasız xidmət göstərilir. Burada fəaliyyət göstərən olimpiya idman mərkəzində isə tələbələr müxtəlif idman növləri ilə məşğul olur, muxtar respublikada keçirilən idman yarışlarında fəal iştirak edirlər. Əcnəbi tələbələr üçün ekskursiyalar da təşkil olunur ki, bu da bizim marağımızı daha çox cəlb edir. Tez-tez kollektivlə birlikdə muzeyləri, tarixi abidələri ziyarət edir, bu qədim diyarın tarixi və zəngin mədəniyyəti haqqında biliklərə yiyələnirik”.

Nigeriya Respublikası vətəndaşı Somson Odigienin fikrincə isə: “Naxçıvanda yaşamaq təhlükədən uzaq, əmin-amanlıq içində dinc, rahat həyat yaşamaq deməkdir. Hər şeydən əvvəl, diqqətimi buranın sakit həyat tərzi, ən əsası, təmizliyi cəlb edir. Məsələn, qışda gecə səhərə kimi qar yağır. Düşünürsən ki, bu qədər yağan qar səhər şəhərə çıxmaqda, universitetə, mağazaya getməkdə maneçilik törədəcək. Lakin səhər oyandıqda qarın aramsız yağmasına baxmayaraq, yerdə qardan əsər-əlamət qalmadığını görürsən. Şəhərə çıxırsan, şəhər tər-təmiz… Burada insanlara göstərilən qayğı və diqqət məni heyran edir.

Hazırda universitetin Tibb fakültəsinin Müalicə işi ixtisasında təhsil alıram. Bu ixtisası seçməyimin əsas səbəbi burada təhsilin keyfiyyəti və ən son texnologiyalarla təchiz olunan səhiyyə ocaqlarıdır. Tibbi-praktik təcrübələrimizi təkmilləşdirmək üçün tez-tez xəstəxanalarda oluruq. Buradakı müasir standartlara cavab verən tibbi avadanlıqların istifadə qaydasını öyrənirik. Bu isə gələcək işimizdə daha çox biliklərə nail olmağımıza imkan verəcək”.

İraq Respublikasının vətəndaşı Hüseyn Torhanı isə daha çox Naxçıvandakı adət-ənənələr cəlb edir: “Dünya mədəniyyəti, adət-ənənələri, milli dəyərləri hər zaman xüsusi marağıma səbəb olur. Bir çox ölkələrdə olmuşam, bunlarla yaxından maraqlanmışam. Lakin heç bir yerdə burada olduğu kimi bayramlarda, xüsusilə də Novruz bayramında insanlarda olan ruh yüksəkliyi, adət-ənənələrə bağlılıq, milli dəyərlərə ehtiramla rastlaşmamışam. Burada olduğum müddətdə “Lavaş”, “Kətə”, “Plov” festivalları keçirilib. Bu festivallar Azərbaycan mətbəxinin zənginliyini sübut edir.

Universitet isə mənə bu illərdə təhsillə yanaşı, həm də səmimi və mehriban dostlar qazandırdı. Fikrimcə, Naxçıvan Dövlət Universitetində təhsil almaq uğurlu gələcəyimin zəmanətidir”.

Əcnəbi tələbələrin nəinki universitetin, eləcə də muxtar respublikanın tarixi, mədəniyyəti, adət-ənənələri, milli mətbəxi, təbiəti, insanlarının səmimi rəftarı, bir sözlə, bütün zənginlikləri haqqında təəssüratları insana ürəkdolusu qürur hissi yaşadır və onu bu diyara daha böyük məhəbbətlə bağlayır.

Ölkəmizin insanları hər zaman dosta hörmətlə yanaşmış, dostluğu ən ali dəyərlərdən biri kimi qoruyub saxlamışdır. Elə bu gün də bu təhsil ocağında tələbələr arasında qurulan səmimi dostluqlar, qazanılan bilik və təcrübələr, nailiyyətlər bir gün öz ölkələrinə qayıdacaq xarici tələbələrin yaddaşında xoş xatirə kimi qalacaq. Naxçıvan Dövlət Universitetindəki tələbəlik illərini qürurla anaraq bu dostluq və qardaşlığı qəlblərində hər zaman yaşadacaqlar.

✍ **Gülcamal TAHİROVA**

# Piştaxtalarda bolluq, qiymətlər isə ucuzdur

## (reportaj)

***Payız fəslinin ikinci ayını yaşayırıq. Bu fəsil özü ilə qayğılar da gətirib. Ancaq fikir etməyə dəyməz. Çünki dükan-bazarlarımızda bolluqdur. Piştaxtalara növbənöv məhsullar düzülüb. Belə ünvanlardan biri də "Cahan" Ticarət Mərkəzinin yaxınlığındakı meyvə-tərəvəz bazarıdır. Bu günlərdə biz də həmin bazara üz tutduq.***

Əvvəlcə onu qeyd edim ki, bu bazar naxçıvanlıların ən çox alış-veriş etdiyi ünvanlardan biridir. Bölgələrimizdə yetişdirilən cürbəcür meyvə-tərəvəzləri, min cür nemətləri bu bazardakı piştaxtalarda görmək olar. Payız fəslinin insanlara hədiyyəsi olan al-əlvan meyvələr, meyvə quruları, qış tədarükü üçün ərzaqlar, turşular, mürəbbələr, Ordubad sucuğu, alanası, Cəhri və Üstüpü kələmi, Şahbuz alması, bir sözlə, hər cür neməti burada tapmaq olar.

Yaxınlıqdakı piştaxtaya yanaşıb satıcı ilə tanış olmaq istəyirik. Başı müştərilərə bərk qarışmış satıcı bizə də "Buyurun, nə lazımdır?" – deyir.

Səliqə ilə düzülən məhsullara baxa-baxa satıcı ilə söhbət edirik. Öyrənirik ki, Nurəddin Səfərovun satdığı məhsullar Ordubad mətbəxinə məxsusdur. Həmin məhsullara diqqətlə baxdığımı görüb deyir ki, bəzi müştərilər əlimdə olan bu alana və miyanpurun, lap elə ipdən asılmış sucuğun nə olduğunu bilmirlər. Məndən soruşanda isə, bu məhsullar haqqında məmnuniyyətlə danışıram. Onların necə hazırlandığını yaxşı bildiyim üçün çətinlik çəkmirəm. Alıcı sarıdan da çətinliyim yoxdur.

Nurəddin əminin piştaxtasında müxtəlif meyvə quruları da var. Onlardan dadı və tamına görə bahalı olanı da var, ucuz satılanı da. Məsələn, ərik qurusu nisbətən baha olsa da, tut qurusu ucuzdur və qış aylarında çay süfrələrimizi bəzəyən təamlardandır. Quru meyvələrlə çay içməyə, əsasən, ürək və şəkər xəstəliklərindən əziyyət çəkən yaşlı insanlar üstünlük verirlər.





Həmsöhbət olduğum satıcının qadın müştəriləri isə digər məhsullarla bərabər, bədnəzərdən qoruyan, başağrısına faydalı olan üzərlik almağı lazım bilirlər. Onlardan biri – şəhər sakini Zahirə Orucova deyir ki, vaxtaşırı olaraq evində üzərlik yandırır, onun ətri evdəki ab-havanın dəyişilməsinə də, başağrısı olanların yaxşılaşmasına da öz müsbət təsirini göstərir.

Digər bir piştaxtada turşuların hazırlanması üçün lazım olan ərzaqlar – kələm, qırmızı və ağ çuğundur, kök, yeralması, kal pomidor, çöl qarpızı, kərəviz və sair düzülüb. Satıcı bildirir ki, mövsümün bu çağında turşu hazırlığı görən qadınlarımız belə məhsullara üstünlük verirlər. Həftəbecər üçün də tərəvəz alanlar var, bütün qışboyu işlədilən turşular üçün də. Satıcı deyir ki, məhsullar Üstüpü kəndinin sahələrindən yığılıb. Hər biri can dərmanı, vitamin mənbəyidir.

– Yaxşı Qahab pendiri var, – qeyri-ixtiyari olaraq dönüb səs gələn tərəfə baxanda yaşlı bir qadın gözümüzə sataşır. O, pendiri torbaya qoyur, tərəzidə çəkib, haqqını alıb müştərini şirin dillə yola salır. Biz də ona yaxınlaşıb: – Başqa nələr satılır? – deyə, gözucu nəzər salırıq. Lobya, üzüm yarpağı, turşular, qısaca, qışa hazırlığın müəyyən bir qismi ilə burada da rastlaşırıq. Satıcı Cəmilə xala deyir ki, insanlar üzüm yarpaqlarını plastik qablarda alıb qışda açaraq istifadə edirlər. Piştaxta üzərindəki müxtəlif növ lobyalar, əsasən, Ordubaddan gətirilir.

İndi isə keçirik təbii otlar satılan tərəfə. Çobanyastığı, kəklikotu, solmazçiçək, həmərsin, böyrəkotu kimi onlarla şəfalı bitkiləri görürük. Bitkilərlə yanaşı, burada əriştə və müxtəlif ədviyyatlar da satılır. İstiot, sarıkök, sarıçiçək, əvəlik və sair. Satıcı Ehtiram Nağıyev deyir ki, bunları Şahbuz rayonunun Keçili kəndindən gətirib. İstər ədviyyatlar olsun, istərsə də təbii dərman bitkilərini almaq üçün xeyli adam ona müraciət edir. Xüsusilə də fəsil dəyişikliyi zamanı, soyuqların qapımızı döydüyü ərəfədə müalicəvi dərman bitkiləri alanların sayı daha da artır. Evdə kəsilib qurudulmuş əriştə isə, sadəcə, bu aylarda satılır.

Qarşıdakı piştaxtada isə diqqətimizi çəkən almaların şəffaflığı, al-əlvan rəngi olur. Satıcı Tahir Teymurov deyir ki, almalar Şahbuzun Kükü kəndindən gətirilib. Sağ olsun, dadına baxmaq üçün bizə almalardan təklif edir. Sözünü yerə salmırıq. Dadı da görüntüsü qədər yaxşıdır. Elə buradaca fikrimdən keçir ki, Naxçıvanın təmiz havasının və suyunun hesabına belə ekoloji təmiz məhsulların yetişdirilməsi heç də çətin deyil. Bunun üçün dövlətimiz kənd adamlarına hər cür şərait yaradıb. Belə şərait isə həm də şəhər əhalisinin tələbatını ödəməyə imkan verir.



Bir piştaxtada isə boyhaboy müxtəlif çeşiddə şaftalı, alma və digər meyvələr düzülüb. Bir-birindən dadlı, bir-birindən ləziz. Satıcı Saleh əmidən öyrənirik ki, müştərilər yerli meyvələri daha çox alırlar. Saleh əmi bu meyvələri Şərurdakı bağından gətirib. Deyir ki, bu bağda, demək olar ki, Naxçıvanda yetişdirilən bütün meyvələrdən var. Onlardan satmaq üçün Bakıya da göndərir. Paytaxtımızda Naxçıvanda yetişdirilən meyvələrə böyük maraq göstərilir.

Bazarda alıcılarla da söhbət edirik. Yaşı 60-a yaxın Zəhra nənə deyir ki, övladları Bakıda yaşayır. Hər mövsüm o da dadlı-tamlı nemətlərimizdən övladlarına, nəvələrinə sovqat göndərir. Elə buna görə də yenə bazara gəlib. Sucuqdan, meyvə qurularından, alanadan və bu kimi digər məhsullardan alıb, bağlama düzəldib Bakıya yola salacaq.

...Nahar vaxtından xeyli keçib. Bazarda bir qədər sakitlik yaranıb. Buradan öz tələbatına uyğun məhsullar alan insanlar bazarın çıxışına yaxınlaşırlar. Artıq bəzi piştaxtaların üstü boşdur. Evlərinə tərəf üz tutan satıcıların təbəssümündən hiss olunur ki, qazancları pis olmayıb. Biz isə düşünürük ki, onların bu qazancı zəhmətsevərliyin, torpağa bağlılığın bəhrəsidir. Halal qazancdır.

*Bəli, torpaq onun qədrini bilənlərə qarşı çox səxavətlidir. Zəhmətini çəkənin əvəzini artıqlamasıyla ödəyir. Torpaq deyir: "Öldür məni, dirildim səni".*

✍ **Fatma BABAYEVA**

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 14 noyabr 2017-ci il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | Əmlakın (15 faiz) güzəştli satış qiyməti (manat) | İlkin satış qiymətinin 5 faiz həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|
| 1. | 740 kvadratmetr torpaq sahəsində yerləşən ikimərtəbəli, 4 otaqlı, 85,56 kvadratmetr yaşayış, 37 kvadratmetr qeyri-yaşayış, 216,07 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Naxçıvan şəhəri, V.Qasımov küçəsi | 70 000 | - | 3 500 |
| 2. | 674 kvadratmetr torpaq sahəsində yerləşən birmərtəbəli, 2 otaqlı, 56,3 kvadratmetr yaşayış, 21,3 kvadratmetr qeyri-yaşayış, 13,4 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Naxçıvan şəhəri, M.S.Ordubadi küçəsi, ev 5 | 75 000 | - | 3 750 |
| 3. | Naxçıvan şəhəri, H.Aslanov küçəsi, döngə 4, ev 19 ünvanında yerləşən fərdi yaşayış evi | Naxçıvan şəhəri, H.Aslanov küçəsi | 43 700 | - | 2 185 |
| 4. | Culfa şəhəri, M.Hüseynzadə küçəsindəki ikimərtəbəli binanın 1-ci mərtəbəsində yerləşən 234 kvadratmetr qeyri-yaşayış sahəsi | Culfa şəhəri, M.Hüseynzadə küçəsi | 41 350 | - | 2 067,50 |
| 5. | 470 kvadratmetr torpaq sahəsində yerləşən birmərtəbəli, 3 otaqlı, 61 kvadratmetr yaşayış, 50,92 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Culfa şəhəri, H.Cavid küçəsi, ev 32 | 40 000 | - | 2 000 |
| 6. | 894,3 kvadratmetr torpaq sahəsində yerləşən 2 mərtəbəli, 76,44 kvadratmetr yaşayış, 5,76 kvadratmetr qeyri-yaşayış, 179,84 kvadrametr köməkçi sahədən ibarət 4 otaqlı fərdi yaşayış evi | Ordubad rayonu, Aşağı Əndəmic kəndi | 55 000 | 46 750 | 2 750 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakın ilkin satış qiymətinin 5% məbləğində beh Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzinin müəyyən etdiyi hesablaşma hesabına 10 noyabr 2017-ci il tarixədək ödənilməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ21NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlakların sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunmalıdır:

- *Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*
- *ödəniləcək behin qəbzi;*
- *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 14 noyabr 2017-ci il tarixdə, saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

## 2017-ci ildə Naxçıvan Muxtar Respublikası üzrə dən üçün qarğıdalı yığımının yekunu haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Yığılan sahə (hektar) | Məhsul istehsalı (ton) | Məhsuldarlıq (sentner) |
|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 12 | 58,0 | 48,3 |
| 2. | Şərur rayonu | 1237 | 10020,0 | 81,0 |
| 3. | Babək rayonu | 122 | 741,0 | 60,7 |
| 4. | Ordubad rayonu | 1 | 3,2 | 32,0 |
| 5. | Culfa rayonu | 6 | 27,2 | 45,3 |
| 6. | Kəngərli rayonu | 249 | 1506,0 | 60,5 |
| 7. | Şahbuz rayonu | 1 | 4,5 | 45,0 |
| 8. | Sədərək rayonu | 39 | 213,0 | 54,6 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **1667** | **12572,9** | **75,4** |

## İdmançılarımız ölkə çempionatından uğurla qayıdıblar

***Nabran şəhərində kross üzrə Azərbaycan çempionatı keçirilib. Çempionatda Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyasının iki idmançısı mübarizə aparıb.***

Hər iki idmançımız uğurlu çıxışı ilə yadda qalıb. Belə ki, 3 kilometr məsafədə mübarizə aparan Cəbrayıl Yunisov ölkə çempionatında bürünc medal qazanıb. 6 kilometr məsafə üzrə keçirilən yarışda isə idmançımız Əmrah Nağıyev bütün rəqiblərini geridə qoyaraq finiş xəttinə birinci çatıb.

Sonda qalib idmançılarımız təşkilatçılar tərəfindən diplom və medallarla təltif olunublar.

✍ **Ceyhun MƏMMƏDOV**

### *Bildiriş*

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin nəzdində fəaliyyət göstərən "Darıdağ" Futbol Klubu fəaliyyətini dayandırdığından ləğv olunur.

* * *

"Soltech Naxçıvan" Məhdud Məsuliyyətli Cəmiyyətinin (VÖEN-0200806321) hüquqi adı dəyişdirilərək "Pure Energy Naxçıvan" Məhdud Məsuliyyətli Cəmiyyətinə çevrilmişdir.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 857